

Dilqəm ƏHMƏD

# Dörd tələbə ilə bağlı İstanbulda gizli qərar

## Hüseyn Cavidin müəlliminin xatirəsi

(əvvəli ötən sayımızda)

***Mən İsmayıl bəylə görüşdükdən bir həftə sonra məşrutiyyət elan edilmişdi. O zaman ondan aldığım mühüm məktubun bəzi hissələrini ərz edirəm:***

"Möhtərəm və qəyyur (qeyrətli) qardaşımız Rza Tofiq bəy əfəndi.

Yazdığınız müfəssəl məktubunuza tezcə cavab verə bilmədim. Çünkü Asyayi-Vüstaya ikinci səyahətə getmişdim. On beş il müqəddəm gəzmiş görmüş idim. İndi bir daha görüb bu on beş ildən bəri vaqi olmuş təğəyyürat (dəyişiklikləri) gözdən keçirmək müqtəzi (lazım) idi. Yazdığınız məktubun altına mən də imzamı qoyuram. Bundan belə işin və məsələnin irəlisi üçün uzunca bəhs və müzakirə lazım olduğundan məxsus siz və rəfiqlərinizlə görüşməyə varacağam. Əgər vaxt taparsam, bu Ramazana qədər.

Müsəlman qurultayını İstanbulu kənar tutub başlamağa məcbur idim. İndi iş çevrildi, artıq iş daha gözəl gedər. Qurultay ləfzini ortaya atdığım ilə ən ziyadə çalışdığım iki maddə olmuşdur: Biri Avropanı hürkütməmək, digəri Şərq mütəassiblərinə məsələni tamamən açmamaq. Buna bir dərəcə müvəffəq oldum kimi görünür. Qərb və Şərq pək o qədər qurultay fikrindən qorxmur. Zatən qorxacaq və hürkəcək bir şey yoxdur.

Bugünkü məqami-siyasiyənizi təbrik edirəm. Təbrikimin səbəbi aşinalıq və dostluq deyil. Bu mühüm və nazik hallar içində göstərdiyiniz məharətdir. Bizlər Rusiyada belə edə bilmədik, işləri bərbad etdik, indi sizlərə əl çalırıq. Rəfiqlərinizi təbrik edirəm. Mənim əski və xroniki dəvasız bir dərdim vardır ki, türklükdür. Türk gözü ilə baxdığım halda dəxi məmnun qalıram. Davam, etidal üzərə davam! Yazı və məktub ilə baş olacaq şey deyil. Görüşərik, doya-doya söyləşərik. Sağ olun, öz bəradərim.

*Sizin İsmayıl Qasprinski"*

***Bu məktubu aldıqdan bir ay sonra Yusuf Akçura bəydən də uzun və pək mühüm məktub aldım ki, o da Baxçasaraydan yazılmışdı. 14-27 sentyabr 1908-ci il tarixiylə müqəyyətdi. (aiddi).***

***Bu məktub üç qismə ayrılmışdır. Dörd səhifəlik məktubun buraya təkmilini dərc etmək lazım deyil. Yalnız bəzi parçalarını ərz edəcəyəm, çünki mühümdür:***

"Möhtərəm Rza Tofiq bəy əfəndi həzrətləri:

Əbdürrəhman əfəndi vasitəsi ilə İsmayıl bəy Qasprinskiyə göndərdiyiniz uzun faydalı məktub "Tərcüman" heyəti-təhririyyəsinə çatdı. Yalnız bizim heyəti-təhririyyəmiz üçün deyil, bütün Rusiyadakı müsəlman həmyerlilərimiz üçün pək faydalı hesab etdik. İstəyərdik ki, bir vasitə ilə gərək bu məktubunuz və gərəksə məktubunuzdakı əfkarınızın nəşrinə xidmət edəcək digər təhriratınız bizim müsəlmanlar arasında yaxşıca intişar etsin. Bəzi həmyerlilərimizin dərslərinizdə olaraq istifadə eyləmələrindən şübhəsiz, pək məmnun oluruq. Lakin təkcə bu kafi də deyil. Oraya gedib halqayi-tədrisiyyənizdə olmaq təbii ki hər kəsə müyəssər olmur. Bizim rus mətbuatını sizin və sizə mümasil ülum ilə mücəhhəz hürr dimağların səməratına xadim qılmaq əcəba mümkün ola bilməzmi?

Əgər mümkünsə, müsaidə buyurun da sizdən başlayaq".

Mərhum Yusuf Akçura bəy bu uzun məktubun üçüncü qismində bu mühüm sözləri söyləyir:

"Məktubunuzda yazdıqlarınız gənclərimizin digər bir qismini girdikləri dalandan geriyə döndərməyə xidmət edə biləcəkdir. Anlaya bildiyimə görə siz individualistsiniz. İngilis hakim müqtəsidlərini dəstəkləyirsiniz. Bizim gənclərimizin bir qismi isə ruslar vasitəsilə aldıqları alman əfkarıyla sosializm və baxüsus K. Marksın əfkarına pək ziyadə təmayül edirlər. Bəndəniz İstanbul, Paris və xüsusə Parisin də anqloman bir məktəbinin təsiri ilə heç cür almanlaşa bilmirəm. Xocalarım Leroibeainhien (hər iki bərədər!), Levasseur, A. Sarel idi. Hər şeydən ziyadə şəxsin iqtidar və ixtiyarını tanımaqdan özümü ala bilmirəm. Əksəriyyət rus məktəbləri məhsulatı, cəmiyyətçi və dövlətçidirlər. Sizi individualist bir qüvvət görəcək, həmən ona sarılıb və belə bir müavinəti xariciyyə ilə mövzumuzu qüvvətləndirmək arzusu məndə necə şiddətli oyandı. Şayəd bu müavənəti dəriğ etməzsiniz. (əsirgəməzsiniz)

Yusuf Akçuraoğlu"

İstər İsmayıl bəy Qaspırinski, istərsə Yusuf bəy Akçura məndən Asiyanın çox bixəbər və geridə qalmış türklərini cəhalət və qəflətdən oyandırmaq üçün həmiyyətpərvəranə bir xidmət istəyirdilər. Mən o xidməti əlimdən gəldiyi qədər ifa etməyə çalışdım. Burada da on asiyalı türk gəncinə evimdə fəxri olaraq dərs dedim. O əsnada misirli şahzadə Səid Halim paşa mərhuma da xüsusi dərs verməkdə olduğum üçün Bebekdə Halim paşa köşkündə qalırdım. O əsnada məşrutiyyət elan olundu. Təqribən bir il idi ki İttihad və Tərəqqi Cəmiyyətinə mənsub idim və bu cəmiyyətin pək də sevimlisi idim. Asiyalı türk şagirdlərimə məşrutiyyət elanından sonra xüsusi dərslər verməyə vaxtım olmadı. Bununla bərabər o vəfakar gənclər məmləkətlərinə övdət edincəyə (qayıdana) qədər məndən ayrılmadılar. Məmləkətlərinə övdət etdikdən sonra da hamısı işə yararlı adamlar oldular. Yalnız ikisinin vəfat xəbərini alıb mütəəllim oldum.

***Bu cərəyan öz-özünə nüfuzunu artıra biləcək bir yola çıxmışdı. Burada təvəttün edən (yurd salan) türk və tatarların ən rabitəlisi və həmiyyət etibarilə doğru hiss edən, makul düşünən və xeyirli iş görəni mərhum Akçura idi. Nəşr etməkdə olduğu 'Türk ocağı" məcmuəsi də filoloji bir şəkil və mahiyyəti ilə mümtaz idi. Bütün məsrəflərini Sultan Həmidin böyük oğlu mərhum şahzadə Səlim əfəndi ehsan edirdi. Nəhayət, Ziya Gökalp ortaya çıxdı, almanları təqlid edərək milliyyət prinsipinin (irq-race) təmizliyi davası üzərinə bina etmək istədi.***

Bu iddia bizim haqqımızda pək yanlış və pək təhlükəli bir fərziyyə idi. Təbiidir ki, o vaxt Osmanlı dövləti təbəəsindən olub da yad irqə mənsub olan bir çox camaatların bu irq iddiasında bizdən pək haqlı olaraq ayrılacaqları zəruri və bədihi (apaçıq) idi. Türkçülük politikasının bu mənada tərviç edilməsinə alət ola bilməyəcəyim üçün qətiyyən münasibətimi kəsdim. Bu fodulluğun (üstün görmə) nə nəticə verdiyini, məttəəssüf, hər kəs gördü və bu təcrübə Türkiyəyə çox baha başa gəldi. Məşhur şair Şeyx Qalibin başqa bir məsələ və vəsilə iləd ediyi kimi:

**İştə bu qədərdir ol hekayət,**
**Baqisi durug-i binəhayət**

Lakin mən əvvəlki ilin yaz mövsümünü Erenköydə keçirmək üzərə Haydarpaşa xəstəxanasından çıxıb əziz dostlarımdan Fevzinin köşkündə müsafir olmuşdum. Xatirimi xoş tutmaq üçün məni ziyarətə gələn bir çox zəvat arasında mərhum Qasprinskinin oğlu və möhtərəm xanımı da vardı. Onlarla bərabər əsgəri mütəqaidlərdən bir əfəndi də vardı ki, Ankarada xocalıqla məşğul imiş. Bu əfəndi zəki və münəvvər bir krımlı idi.

***Krımın münəvvər müsəlmanlarından xəbər aldım. 'Bugünkü bolşevik hökuməti onların birini də buraxmadı, Sibirə nəfi edərkən yolda tələf etdi!" dedi. Təkrar xəstəxanaya girdim, ondan sonra da Rusiya müsəlmanlarından heç xəbər ala bilmədim.***



*Bu cərəyan öz-özünə nüfuzunu artıra biləcək bir yola çıxmışdı. Burada təvəttün edən (yurd salan) türk və tatarların ən rabitəlisi və həmiyyət etibarilə doğru hiss edən, makul düşünən və xeyirli iş görəni mərhum Akçura idi. Nəşr etməkdə olduğu "Türk ocağı" məcmuəsi də filoloji bir şəkil və mahiyyəti ilə mümtaz idi. Bütün məsrəflərini Sultan Həmidin böyük oğlu mərhum şahzadə Səlim əfəndi ehsan edirdi. Nəhayət, Ziya Gökalp ortaya çıxdı, almanları təqlid edərək milliyyət prinsipinin (irq-race) təmizliyi davası üzərinə bina etmək istədi...*